Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: Aprel 2024

# Au-Pair kimi fəaliyyət- məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Au Pair fəaliyyəti ilə bağlı viza üçün yalniz 27 yaşdan aşağı olan və alman dilinin ən azı sadə biliklərinə (Səviyyə A1) malik olan şəxslər müraciət edə bilərlər. Qəbul edən ailədə ana dili alman dili olmalıdır. Əgər qəbul edən ailədə ana dili alman dili deyil, başqa xarici dildirsə, bu halda qəbul edən ailə Au Pair kimi müraciət edən ilə eyni ölkədən olmamalıdır. Qalma müddəti maksimum 12 ay ola bilər.

Sənədlərə baxma müddəti bir qayda olaraq 2-4 həftədən ibarətdir.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

- Xarici pasport, ən az 2 boş səhifəsi olmaqla *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizaları, möhürlər və qeydlər olan səhifələrin 1 ədəd surəti)*
- Şəxsiyyət vəsiqəsi *(əsli + 1 ədəd surəti)*
- 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması
- 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı)
- Viza rüsumu (milli viza üçün müraciət etməyə dair **ümumi məlumatlara** bax)
- Au-Pair fəaliyyəti ilə bağlı imzalanmış təlimat
- Yaşamaq haqqında Qanunun 18-ci maddəsinin 2-ci Paragrafının 4a bəndinə uyğun olaraq imzalanmış təlimat – dəqiq iş yeri təklifi haqqında təsdiqin təqdim edilməsi
- Qalma yeri, ailə üzvlərinin sayı, cib xərcliyi, tapşırıqlar, qalma müddəti, öhdəlikləri əks etdirən qəbul edən ailə və ərizəci tərəfindən bağlanan „Au Pair müqaviləsi“ *(əsli +1 ədəd surəti)*
- Qəbul edən ailə tərəfindən tam şəkildə doldurulmuş və imzalanmış Federal Məşğulluq Agentliyinin Au-Pair anketi *(əsli + 1 ədəd surəti)*
- Qəbul edən ailənin Almaniyada qeydiyyatına dair təsdiq sənədi *(1 ədəd surəti)*
- Ən az bir valideynin Almaniya və ya digər Aİ/EEA ölkə tərəfindən verilən pasportu və ya şəxsiyyət vəsiqəsi habelə qaldığı ölkədə yaşamaq icazəsi *(1 ədəd surəti)*
- Dil biliklərinin A1 səviyyəsini və ya ondan da yüksək olan dil bilikərini sübut edən sertifikat *(əsli +1 ədəd surəti)*
- Au Pair fəaliyyətinə və gələcək planlarınıza dair alman dilində yazılmış motivasiya məktubu

  *(1 ədəd surəti)*
- *əgər varsa*: sizin əvvəlki aldığınız təhsilinizə dair sübutlar (məs.: diplomlar və sertifikatlar *(əsli + 1 ədəd surəti)*
- Səfər müddəti üçün tibbi sığorta *(əsli + 1 ədəd surəti)*